Seminar-müşavirədə birbaşa Təhsil Nazirliyindən maliyyələşən xərclərin 2009-cu il üzrə icrası, 2010-cu ilin 9 ayı üzrə icra vəziyyəti və 2011-ci ilin proqnoz göstəriciləri, Beynəlxalq və Milli Mühasibat Uçotu Standartlarının tətbiqi, ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiqi vəziyyəti, əmək haqlarının artımı ilə bağlı qarşıda duran vəzifələr, ştat və tarifləşmə cədvəllərinin yenidən hazırlanması, rüblük və illik mühasibat hesabatlarının təqdim edilməsi, "İlk peşə-ixtisas təhsili müəssisələrinin büdcə təminatı normativlərinin hesablanması metodikası və tətbiq olunma Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 avqust 2010-cu il tarixli, 150 nömrəli Qərarının icrası ilə bağlı qarşıda duran vəzifələr və bir sıra digər mövzular ətrafında müzakirələr aparılıb.

Seminar-müşavirəni giriş sözü ilə açan İqtisadiyyat şöbəsinin müdiri Şahrza Əliyev tədbirin gündəliyi barədə məlumat verdikdən sonra 2009-cu ilin dövlət büdcəsi üzrə təhsil xərclərinin icrası, 2010-cu ilə dövlət büdcəsində nəzərdə tutulan təhsil xərcləri və 2011-ci ilə dövlət büdcəsinin proqnozlaşdırılan gəlir və xərcləri, həmçinin bir sıra göstəricilər barədə müqayisəli rəqəmləri tədbir iştirakçılarının nəzərinə çatdırıb. Ş.Əliyev bildirib ki, dövlət qayğısının yüksək təzahürü kimi təhsilə dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi ildən-ilə əhəmiyyətli dərəcədə artır.

Sonra Şahrza Əliyev seminar-müşavirədə müzakirə edilən mövzuların hər biri barədə məlumat verərək baş mühasiblərin qarşısında duran vəzifələrdən danışıb.

Seminar-müşavirədə İqtisadiyyat şöbəsinin Plan-maliyyə sektorunun müdiri Vüqar Əsgərov birbaşa Təhsil Nazirliyindən maliyyələşdirilən xərclərin “2009-cu il üzrə icrası, 2010-cu ilin 9 ayı üzrə icra vəziyyəti və 2011-ci ilə proqnoz göstəriciləri, mövcud problemlər və qarşıda duran vəzifələr”, Mühasibat uçotu və hesabat sektorunun müdiri Fərhad Əliyev “Beynəlxalq və Milli Mühasibat Uçotu Standartlarının tətbiqi, problemlər və qarşıda duran vəzifələr”, şöbənin baş məsləhətçisi Zahid Nağıyev “Təhsil işçilərinin əmək haqlarının artımı ilə bağlı qarşıda duran vəzifələr, ştat və tarifləşmə cədvəllərinin yenidən hazırlanması ilə bağlı məsələlər”, Mühasibat uçotu və hesabat sektorunun baş məsləhətçisi Akif Hacıyev “Rüblük və illik mühasibat hesabatlarının təqdim edilməsi ilə bağlı bir sıra məsələlər, təlimatlar, izahatlar və tövsiyyələr”, Plan-maliyyə sektorunun aparıcı məsləhətçisi Ramil Orucov “Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiqi işlərinin gedişatının vəziyyəti və bu sahədə görüləcək işlər” və həmin sektorun baş məsləhətçisi Kəmalə Vəliyeva isə "İlk peşə-ixtisas təhsili müəssisələrinin büdcə təminatı normativlərinin hesablanması metodikası və tətbiq olunma Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 avqust 2010-cu il tarixli, 150 nömrəli Qərarının icrası vəziyyəti və bununla bağlı qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış edib, baş mühasibləri maraqlandıran sualları cavablandırıblar.

Seminar-müşavirənin sonunda İqtisadiyyat şöbəsinin müdiri Şahrza Əliyev müzakirə olunan mövzular üzrə bir sıra məqamlara aydınlıq gətirib, Təhsil Nazirliyi rəhbərliyinin İqtisadiyyat şöbəsinin qarşısında qoyduğu yeni tələblərdən söz açıb, bununla bağlı tabe təşkilatların baş mühasiblərinin üzərinə düşən vəzifələri nəzərə çatdırıb və tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıb.